**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 287/1** **19 may 2017-ci il**

**Auditorlar Palatasının 2016-cı il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair illik hesabat barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 8.4-cü "Auditorlar Palatasının 2016-cı ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması və onun auditinin aparılması" bəndinə müvafiq olaraq Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış maliyyə hesabatlarını və həmin hesabatların auditinin aparılması barədə "HLB Azərbaycan" MMC-nin direktoru - auditor İ.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Maliyyə və təsərrüfat idarəsi (V.Rəhimov) tərəfindən hazırlanmış "Auditorlar Palatasının 2016-cı üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair" illik hesabat və "HLB Azərbaycan" MMC-nin direktoru - auditor İ.Bayramov tərəfindən aparılmış auditə dair müstəqil auditorun hesabatı nəzərə alınsın (əlavə olunur).
2. Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, Palatanın maliyyə-təsərrüfat fəaliyyətində xərclərin və üzvlük haqqı üzrə debitor borclarının azaldılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.
3. Palatanın Maliyyə və təsərrüfat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, uçot siyasəti hazırlanarkən Auditorlar Palatası Şurasının üzvü, sərbəst auditor A.Cəfərov tərəfindən təklif olunan "binalar üçün yararlılıq müddətinin 20 ildən 35 ilədək uzadılması" müddəasının nəzərdə tutulması təmin edilsin.
4. Palata sədrinin müşaviri F.Qarayevə və Aparatın informasiya texnologiyaları üzrə mütəxəssisi İ.Zeynallıya tapşırılsın ki, bir həftə müddətində həmin hesabatın azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini və ingilis dili variantının Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) göndərilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**